# ƏSGƏR ANASININ ÜRƏK ÇIRPINTILARI



*FATMA ABDULLAYEVA*
*C.Naxçivaniski adına hərbi liseyin sabiq müəllimi, ali dərəcəli müəllim, filoloq*

## *GÖZÜN AYDIN, POLADIM*

*Azərbaycan ordusunun şəhid generalı Polad Həşimova*

Arzuları çin olan,
ruhu sevinən igid,
Yerin boşdur səngərdə,
hamı səni arayır.
Yaman yatıb gecikdin,
dur,Vətən haraylayır.
Sağ olaydın kaş indi,
ordumuz gündə neçə,
kəndi, şəhəri
yağıdan azad edir.
Sevincimiz min-mindir...
Sənin o gülər üzün
o məğrur təbəsümün,
səngərdəki əsgərə
qol-qanad bağışlayır.
Bu gün büyöv xalqımız
əsgəri alqışlayır...
Bil ki... sənin ölümün
cilovunu gəmirən
xalqına təkan oldu.
Qarabağın yolunda
orduma sükan oldu.
çəkdiyin Vətən dərdi
sevinclərə bələndi.
Milyon-milyon qəlblərə
gürşad bir selələndi.
Vətən məcnunlarını
öndə gedən dəstəsi,
sənin qisasın üçün
sipər etdi sinəsin...
Fizulidə, Murovda
yüksələn hər bir bayraq
Vətənimin qüruru,
şəhidlərin qisası,
tarixə şahid oldu.
Hər qarış uğurunda
neçə-neçə əsgərim
bir ölməz şəhid oldu.
Xudafərin körpüsü
o tay-bu tay - hər kəsə
bu gün açmaqda qucaq.
Bilirəm bu döyüşdə
ordumuz qalib olacaq...
Qalx, Poladım, qalx, gedək,
səni görsə yağılar
Bağırları yarılar...
Axı şəhidlər ölmür
Azad olan hər bir yurd
heç vaxt şəhidsiz olmur.
Hər yerdə izin qalıb,
ürəkləri isidən
atəşin közün qalıb...
Odur Səmayə ana
dil deyib səni ağlar,
mərd igidlər içində
gözləri səni arar.
Bir möcüzə olaydı
Qorqud balası Polad
kaş indi sağ olaydı.
Düşməndən azad olan
torpaqlara baxdıqca
həsrəti korşalaydı...
Qalx, Poladım, qalx, gedək,
yurd uğrunda döyüşən
hər bir igid əsgərin
odur səni səsləyir
xalqın isə vüqarla
"Şəhidlər ölməz" deyir.

## *OĞLUMA*

*ön cəbhədə olan Azərbaycan ordusunun zabiti polkovnik-leytenant Mübariz Şabanova*

Oğul, boyuna qurban!
Əski qarı düşmənin
başına o açdığın
"düyün, toyuna qurban".
Harda olursansa ol,
canın sağ olsun təki.
Vətəninin önündə
üzün ağ olsun təki...
Döyüş igid ər kimi
qoy gəlsin xoş sorağın...
Azad olsun yağıdan
hər bir qarış torpağın

***

Nə zalım, nə qəvi bir düşmənim var,
Xocalı yarası - sağalmaz yaram.
Hiyləgər, yalançı, qəddar yağıdan
Qisasım alınsa, ölsəm də nə qəm,
Əbədi... əbədi... rahatlanaram.

Ordum müzəffərdir, qalib gələcək,
Qılınclar çıxmadı boşuna qından...
Bu zərif könlümdə nəğmə deyəcək,
Qorxmaz əsgərimin şərəf, şanına
Şuşaya bayrağı taxdığı andan.

***

Arzusu, muradı gözündə donan,
Vətənin yolunda, haqqın yolunda
Qanına bələnən körpə fidanım.
Sizin sayənizdə doğma yurdumun
Zəngin üfüqündə doğacaq Günəş,
Zülmətdən sıyrılıb çıxacaq danım...